# Tarix təlimində məntiqi təfəkkürün inkişafına yönəldilmiş metodlardan istifadə probleminin metodik ədəbiyyatda qoyuluşu

**Aygün Xeyirbək qızı Əliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universteti*
**E-mail:** aygun_eliyeva_1989@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. M.M. Əmirov,
p.ü.f.d., dos. T.S. Paşayev

**Açar sözlər:** təfəkkür, metod, pedaqoji, təlim, taksonomiya
**Ключевые слова:** мышление, методика, педагогика, обучение, систематика
**Key words:** thinking, method, pedagogy, training, taxonomy

Təfəkkürün müxtəlif cəhətlərini, müəyyən xassələrini hər bir elm öz məqsədini yerinə yetirmək niyyəti ilə tədqiq edir. Lakin buna baxmayaraq onların hamısının mövzusu təfəkkür olduğundan, onların arasında müxtəlif münasibətlər yaranır. Bu münasibətləri aydınlaşdırmadan, məntiqin əsil vəzifələrini başa düşmək olmaz.

Təfəkkür prosesləri pedaqogika elmlərinin də tədqiqat obyekti olmuşdur. Psixoloji fikrin öz dövründə mühüm nailiyyəti sayılan və pedaqoji fikrin inkişafı sahəsində mühüm rol oynayan Blum taksonomiyası problemin tədqiqində mühüm yer tuturdu. Bu taksonomiyada iki fikri proses analiz və sintez xüsusilə ayırd edilmişdir. Blum taksonomiyada bunu məntiqi cəhətdən belə əsaslandırırdı ki, analiz və sintez əsas fikri proseslərdir, digərləri isə ondan törəmədir.

B.Blum təhlili tamın hissələrə ayrılması kimi səciyyələndirirdi və hissələr arasındakı münasibətlərin müəyyən edilməsini onun vacib xüsusiyyəti kimi qiymətləndirirdi. Bu baxımdan B.Blum təhlil zamanı aşağıdakı üç yönümü fərqləndirirdi:

— ünsürlərin təhlili;
— ünsürlər arasında münasibətlərin təhlili;
— tamın təşkil prinsipinin təhlili.

B.Blum sintezi isə hissələr əsasında tamın yaradılması kimi səciyyələndirirdi. Onun taksanomiyasında tərkibin də üç yönümü göstərilmişdir. Blumun taksonomiyasında diqqəti çəkən mühüm bir amil sintezin nəinki təfəkkür, həm də təxəyyül səviyyəsində nəzərdən keçirilməsidir.

50-ci illərdə bu sahədə tədqiqat aparan digər bir psixoloq L.S. Rubinşteyin olmuşdur. Müəllifə görə bu problemi həllində ilk növbədə psixikanın özünün təbiətini araşdırmaq lazımdır.

L.S. Rubinşteyin də əsas diqqəti fikri proseslərə yönəldib. Müəllif göstərir ki, təfəkkür həll olunan məsələnin şərtləri və tələblərinin, onun həlli üsullarının təhlili, tərkibi və ümumiləşdirilməsindən ibarətdir (7, səh.57). Həmçinin müəllif göstərirdi ki, təhlil və tərkib yalnız təfəkkür üçün deyil, bütün idrak prosesləri üçün ümumi məxrəcdir.

B.Blum, L.S.Rubinşteyn, C.Gilford və b. ilə eyni dövrdə yaşamış J.Piaje də fikri əməliyyatların mənimsənilməsini şagirdlərin əqli inkişafının nüvəsi hesab edirdi. Vəsaitdə qeyd olunur ki, artıq 60-70-ci illərdə fikri əməliyyatların şagirdlərdə formalaşdırılması üçün şagirdlərə onların öyrədilməsi, tədris və praktiki tapşırıqların həllində fikri əməliyyatlardan istifadə edilməsi məsləhət görülürdü.

Ə.Paşayev və F.Rüstəmovun "Pedaqogika" adlı dərs vəsaitinin iyirmi dördüncü fəslində "Əqli təhsil-tərbiyə üzrə işlər" adlı başlıqda "Ağıl nədir?", ağlın inkişafı ilə bağlı fikirlər öz

əksini tapmışdır.

Müəllif idrak fəaliyyətinin məhsuldarlığının aşağıdakı xassələrdən asılı olduğunu göstərmişdir.

1. təfəkkürün fəaliyyətinin ümumiləşdiriciliyi
2. təfəkkürün fəaliyyətinin düşünülmüş olması
3. təfəkkürün fəaliyyətinin çevikliyi
4. təfəkkürün fəaliyyətinin sabitliyi (5,səh.347).

Bununla yanaşı, dərs vəsaitində analiz, sintez, ümumiləşdirmə, təsnifetmə, induktiv təfəkkür, deduktiv təfəkkür kimi əqli proseslər haqqında da məlumatlar öz əksini tapmışdır.

Vəsaitdə qeyd edilir ki, inkişaf ilk növbədə şagirdin bilikləri mənimsədiyi vaxt həyata keçirdiyi əqli bacarıqların və fəaliyyətin xarakteri ilə müəyyən olunur. Məntiqi təfəkkürün inkişafı üçün şagirdə öz fikrini sübut etməyi öyrətmək lazımdır.

Problemlə bağlı ədəbiyyatlar sırasında Ə.Əlizadə, H.Əlizadənin "Pedaqoji psixologiya" dərs vəsaitini qeyd edə bilərik. Vəsaitdə "Yeni pedaqoji təfəkkür konsepsiyası" adlı başlıqda XX əsin 80-ci illərində yeni pedaqoji təfəkkürün formalaşmağa başlaması, inkişafı, yeni pedaqoji təfəkkürün formalaşmasında psixologiyanın rolu, şagird şəxsiyyətinin formalaşmasına təsiri öz əksini tapmışdır.

Vəsaitdə yeni pedaqoji təfəkkürün inkişafında iki mərhələ fərqləndirilir:

Birinci mərhələdə ənənəvi didaktik sistemin elmi tənqidi təhlili əsasında dərsin optimallaşdırılması başlıca psixoloji və pedaqoji problem kimi xüsusi əhəmiyyət kəsb edir. Müasir təhsil konsepsiyasının işlənməsi və müasir dərs konsepsiyasının məhz bu konsepsiya kökündə işlənilməsi ikinci mərhələnin ana xəttini təşkil edirdi. Həmçinin yeni pedaqoji təfəkkürün əsas müddəaları vəsaitdə öz əksini tapıb.

İnteraktiv konsepsiyada göstərilir ki, ki, müasir məktəb birinci növbədə təfəkkürün texnologiyasının nailiyyətlərinə söykənməlidir.

Vəsaitdə qeyd edilir ki, bu gün məktəblərdə bərqərar olan interaktiv metodlar təcrübəsində şagirdlərdə təfəkkürün inkişaf etdirilməsinə xüsusi önəm verilir, onlarda bilavasitə məntiqi təfəkkürün, yaradıcı təfəkkürün inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir.

İnteraktiv metodlar konsepsiyasında qeyd edilir ki, şagirdlərdə nəzəri təfəkkürün inkişafının formalaşdırılması texnologiyası dövrün ən mühüm psixopedaqoji problemidir.

Problemlə bağlı ədəbiyyatlar sırasında professor Ə.Ə.Əlizadənin "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" adlı dərs vəsaitidir. Vəsaitin "Əqli inkişafın təfəkkür zirvəsi" adlı başlıqda müəllif təfəkkürün inkişafını şagirdlərin əqli inkişafında başlıca məqsəd sayırdı.

Vəsaitdə təfəkkür hansı xüsusiyyətlərlə seçilir, onun təxəyyül və qavrayışdan fərqi nədir, məktəblərdə təfəkkürün inkişafı üçün nəyə, nə üçün diqqət yetirilməlidir kimi suallara cavab tapılır. Müəllifin fikrincə, təfəkkürün inkişafının ana xəttini fikri əməliyyatların formalaşması təşkil edir.

Müəllif dərs vəsaitində psixoloji sahədə bu sahədə tədqiqat aparan tədqiqatçılar barədə məlumat vermişdir. Ə.Əlizadə 50-ci illərdə bu sahədə aparılan tədqiqatlar, o cümlədən Blum taksonomiyası, L.S.Rubinşteyinin, C.Gilfor, Z.Piajenin, Azərbaycanda isə Ə.Ə.Qədirov, M.Həmzəyev, Z.Mehdizadə, N.İbrahimxəlilovun tədqiqatları barədə məlumat vermişdir.

Problemlə bağlı tədqiq etdiyimiz ədəbiyyatlar içərisində Hüseynov E. "Təlimdə idraki marağı necə stimullaşdırıram" adlı məqaləsində şagirdlərin idrak marağını stimullaşdırarkən aşağıdakı amilləri ön palana çəkir:

a) öyrədilən materialın yeniliyi;

b) materiala tarixi yanaşma;

v) keçilmiş materiallar əsasında yeniliyi tapma; q) öyrədilən biliyin praktikaya tətbiqi.

İdrak marağının stimullaşdırılmasında mühüm tələblərdən biri də şagirdin idrak fəaliyyətinin inkişafı ilə əlaqədardır. Bura aşağıdakılar daxildir:

a) müstəqil işlərin müxtəlifliyi;

b) təlimdə problemlilik;

v) materiala tədqiqatçılıqla yanaşmaq; q) yaradıcılqla yanaşma (3, səh.3).

Müəllif bunların içərisində problemliliyə daha çox üstünlük vermişdir.

Digər problemlə bağlı tədqiq etdiyimiz məqalə M. İsrafilovun “Məntiqi təfəkkür lazımdırmı” adlı məqaləsidir. Məqalədə məntiq insan təfəkkürünün tarixi inkişafı haqqında elm kimi səciyyələndirilmişdir.

Müəllif qeyd edir ki, insanların intellektual hazırlığı elmdə və incəsənətdə təzahür edir. Bu baxımdan məntiqi qanun və qaydaların öyrənilməsində hamının marağı olmalıdır. Məntiqilik tarixi hadisə və proseslərin beynimizdə real, dekvat inikasıdır (4, səh.3).

Beləliklə, məntiq xüsusi elmdir, ümumbəşəri səciyyə daşıyır. Onun biliklərin sistemləşdirilməsində böyük əhəmiyyəti vardır.

Tədqiq etdiyimiz problemlə bağlı olaraq nəzəriyyəçi alim Z.Veysovanın “Fəal/interaktiv təlim” adlı metodik vəsaitini nəzərdən keçirəcəyik. Vəsaiti nəzərdən keçirdikdə burada interaktiv təlim metodlarının təsnifatı ilə rastlaşırıq (6, səh.55). Pedaqoji fəaliyyətlə məşğul olanlar üçün təqdim olunan bu vəsaitin başlıca məqsədi müəllimlərə interaktiv təlim metodu üzrə dərslərin müvəffəqiyyətlə planlaşdırılması və keçirilməsi işində lazım olan bilik və bacarıqları formalaşdırmaqdır.

Müəllif vəsaitdə məntiqi təfəkkür proseslərinin inkişafına yönəlmiş texnikaları göstərmiş və onların dərs prosesində tətbiqi haqqında ətraflı məlumat vermişdir. Bu texnikalar aid olan alqoritmin çıxarılması-analizin sintezə, Tapşırıqlar qrupu üçün süjet əsasının yaradılması, Ən mühümü, “Qaydalara əsasən oyunlar-oyun tapmaca-oyun yarış”, “Kim daha çox?”, təfəkkürün çevikliyini yoxlamaq üçün “Kim daha cəld?” haqqında ətraflı məlumat vermiş, onların tətbiqi yolların aydın şəkildə izah etmişdir.

Problemlə bağlı digər müraciət etdiyimiz ədəbiyyat professor M.M. Əmirovun “Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası” adlı dərs vəsaitidir ki, vəsait xalqımızın milli-mənəvi dəyərləri, pedaqoji irsi, xarici təcrübənin ən son nailiyyətləri nəzərə alınmaqla yazılmışdır.

Biz vəsaiti nəzərdən keçirdikdə orada fəal/interaktiv təlimin zəruriliyi, müasir təlimin əsas xüsusiyyətləri, yeni təlim texnologiyalarının nəzəri və təcrübi məsələləri ilə rastlaşırıq. Dərs vəsaitində tarix dərslərində yeni üsulların tətbiqi, fəal/interaktiv təlimin mahiyyəti və mexanizmləri, fəal dərsin quruluşu ilə bağlı bölmələri tədqiq etdiyimiz problemlə bağlı olaraq daha çox müraciət etmişik.

Burada interaktiv təlimin metodlarının həmçinin məntiqi təfəkkür proseslərinin inkişafına yönəlmiş metodlar haqqında məlumat verilmiş, bu metodun tərkibinə daxil olan texnikalar və onların tətbiq olunması qaydaları ətraflı şəkildə şərh edilmişdir. Məntiqi təfəkkür proseslərinin inkişafına yönəlmiş texnikaların tətbiq olunduğu dərs nümunəsi vermişdir (2, s.420).

Dərs vəsaitinin quruluşunu nəzərdən keçirdikdə burada fikri əməliyyatlar olan analiz, sintez, müqayisə, abstraklaşdırma və ümumiləşdirmə kimi məntiqi əməliyyatlar haqqında geniş məlumatlar əldə edə bilərik.

Müəllif vəsaitdə bununla yanaşı məntiqi təfəkkürün inkişafına səbəb olan digər metodlar yəni beyin həmləsi, müzakirələr, kublaşdırma, sorğu vərəqlər və müsahibə və s. haqqında da ətraflı məlumat vermiş, bu metodların tətbiqi yollarını göstərmişdir.

Şagirdlərdə məntiqi təfəkkürün inkişafına yönəlmiş metod və üsulların tətbiq olunduğu di-

gər bir metodik vəsait Bünyatova F.A., Abdulla B. "Təlim və tərbiyədə ineraktiv texnologiya" adlı vəsaitdir. Vəsaitdə bir çox interaktiv təlim metodları haqqında məlumat verilmişdir. Onların içərisində şagirdlərdə məntiqi təfəkkürün inkişafına səbəb olan müzakirələr metodunu qeyd edə bilərik. Müəllif vəsaitdə bu metodların tətbiqi yollarını ətraflı şərh etmişdir.(1)

Beləliklə, problemlə bağlı tədqiq etdiyimiz ədəbiyyatları pedaqoji-psixoloji və elmi-metodik olmaqla iki cür qruplaşdıra bilərik. Pedaqoji-psixoloji istiqamətdə aparılan tədqiqatlarda problemin nəzəri cəhətdən daha dərindən tədqiq etmişlər. Elmi-metodik ədəbiyyatda isə problemin müxtəlif sahələri işlənsə də tədqiq etdiyimiz problem üzrə işin sistemi yaradılmamışdır. Bu baxımdan problemin işlənməsini məqsədəuyğun hesab etdik.

**Məqalənin aktuallığı.** Şagirdlərdə idrak fəallığı, təfəkkürün inkişafı didaktikanın tədqiq etdiyi problemlər sırasına daxildir. Belə ki, müasir təhsil sistemimiz təfəkkürə əsaslanır və hal-hazırda interaktiv təlim metodlarının geniş şəkildə tətbiq olunduğu təhsil sistemimizdə müəllim tədris edilən materialların şagirdlər tərəfindən mənimsənilməsində məhz onların təfəkkürünə, təfəkkürün müstəqilliyinə əsaslanır. Bu baxımdan tarix dərslərində məntiqi təfəkkür proseslərinin inkişafına yönəlmiş metodların tətbiqinə böyük ehtiyac vardı.

**Məqalənin elmi yeniliyi.** Mövzu ilə bağlı aparılan tədqiqat zamanı məlum olur ki, interaktiv metodlardan istifadə olunması təlimə cəlb olunanların təfəkkürünün müntəzəm inkişaf etdirilməsinə, bilik və bacarıqlarının, müstəqil əldə olunmasına, dərsin maraqlı olmasına şərait yaradır, dərsə maraq artır, əldə edilmiş biliklərin daha uzun müddət yadda saxlanılması təmin edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Yuxarıda da qeyd etdiyimiz kimi taksonomiyalar müəllimə dərs üçün hazırlayacağı təlim məqsədlərini müəyyənləşdirməsinə kömək edir və təlim məqsədlərinin əlaqəliliyini və əhatəliliyini təmin edir. Məqsədlərin səviyyələr üzrə (bilik, anlama, tətbiq, təhlil, sintez, dəyərləndirmə) əlaqəli şəkildə müəyyənləşməsi təlim prosesində taksonomiyaların müxtəlif mərhələlərini əhatə etmək imkanı verir və müəllimi yalnız məlumatları yadda saxlamağı öyrətmək kimi uğursuz tədris fəaliyyətindən qoruyur. Bu baxımdan taksonomiyalar, təkcə müəllimin fəaliyyətinə rəngarənglik qatmır, həm də şagirdin nail olacağı təlim məqsədlərinin əhatə dairəsi baxımından geniş və dəqiq olmasını təmin edir.

## Ədəbiyyat

1. Bünyatova F.A., Abdulla B. Təlim və tərbiyədə interaktiv texnologiya: Müəllimlər üçün metodik vəsait. Bakı, 2000, 87 s.
2. Əmirov M.M. Tam orta məktəbdə tarixin fəal/interaktiv tədrisi metodikası. Bakı, 2014, 700 s.
3. Hüseynov E. Təlimdə idraki marağı necə stimullaşdırıram. "Azərbaycan müəllimi" qəz., 1979, 21 dekabr.
4. İsmixanov M. Şagirdlərdə təlimə müsbət motivlərin formalaşdırılması yolları // Azərbaycan məktəbi, 1990, № 3, s. 18-22.
5. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı, 2007, 447 s.
6. Veysova Z. "Fəal/interaktiv təlim: Müəllim üçün metodik vəsait. Bakı, 2007, 149 s.
7. Рубинштейн С.А. Мышление и пути его исследования, М.: изд-во АН СССР, 1958.

**А.Х. Алиева**

## Проблема использования методов, направленных

## на развитие логического мышления в истории обучения в методической литературе


### Резюме

Таким образом, литература, которую мы изучаем по проблеме, может быть сгруппирована в два типа: педагогическая, психологическая и научная. В психолого-психологических исследованиях они исследовали проблему более глубоко с теоретической точки зрения. Хотя в научной и методической литературе были разработаны различные области проблемы, система работы над этой проблемой у нас еще не создана. С этой точки зрения мы сочли целесообразным решить проблему.


**A.H. Aliyeva**

## The problem of using the methods aimed at the development of logical thinking in the history training in the methodical literature


### Summary

Thus, the literature we study on the problem can be grouped into two types: pedagogical, psychological and scientific. In the pedagogical and psychological researches, they have researched the problem from the theoretical point of view. Although scientific and methodological literature has worked out various areas of the problem, a system of work on the problem we have not yet established. From this point of view, we considered it expedient to work out the problem.


**Redaksiyaya daxil olub:** 23.01.2020